

**Mirzəyev Ceyhun Zirəddin oğlu**

Ceyhun Zirəddin oğlu Mirzəyev 1996-cı il avqustun 12-də Tovuz rayonunun Əyyublu kəndində anadan olub. 2002–2013-cü illərdə E. Bayramov adına Əyyublu kənd tam orta məktəbində təhsil alıb.

Ceyhun Mirzəyev 2014–2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Ceyhun Mirzəyev 2016-cı ilin Aprel döyüşlərində iştirak edib.

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olan Ceyhun Mirzəyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Zəngilan, Qubadlı və Laçının azadlığı uğrunda gedən döyüşlərdə könüllü olaraq iştirak edib. Ceyhun Mirzəyev Laçın rayonu istiqamətində gedən döyüşlər zamanı şəhid olub. 6 dekabr 2020-ci il tarixdə Əyyublu kəndində dəfn olunub.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamları ilə əsgər Mirzəyev Ceyhun Zirəddin oğlu "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları ilə təltif edilib.